***Prezident İlham Əliyevin işğaldan azad olunan rayonlara səfərləri göstərir ki, Azərbaycan dövləti düşməndən təmizlənən ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını diqqət mərkəzində saxlayır. Ölkə rəhbəri tərəfindən hazırda erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməlinin qoyulması, tikinti işlərinin geniş vüsət alması, yüksək texnologiyaların tətbiqinə start verilməsi, Qarabağ bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində önəmli tədbirlərin gerçəkləşdirilməsi bunun bariz ifadəsidir.***

# Qarabağın sürətlə bərpası Azərbaycanın güc-qüdrətindən xəbər verir



Vətən müharibəsindən ötən müddətdə bu istiqamətdə genişmiqyaslı işlərin görülməsinə başlanılması Azərbaycanın güclü iqtisadi potensiala malik dövlət olmasının təsdiqidir. Təkcə Füzuli rayonunda qısa vaxt ərzində Beynəlxalq Hava Limanının sürətlə inşası bu fikri deməyə əsas verir. Bu, həm də dövlətimizin başçısının indiyədək verdiyi hər bir vədi layiqincə yerinə yetirməsinin göstəricisidir. Prezident İlham Əliyevin cari il yanvarın 14-də adı çəkilən hava limanının təməli qoyularkən verdiyi vədi xatırlatsaq, sözümüzdə nə qədər haqlı olduğumuz aydın nəzərə çarpar: "Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".

Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl rayonuna səfəri də bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinin sürətlə həyata keçirildiyini, Ermənistanın işğalı zamanı yerlə bir edilən şəhər və kəndlərimizin, dağıdılan tarixi, mədəni və dini irsimizin bərpasının, avtomobil yollarının tikintisinin xüsusi diqqət mərkəzində saxlanılmasının parlaq ifadəsidir.

Dövlətimizin başçısı həmin gün Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündə Qarabağda bərpa-quruculuq işlərinin gedişi barədə fikirlərini bildirərək, bu məsələyə prioritet istiqamət kimi yanaşıldığını vurğulayıb. Ölkə rəhbəri burada olduğu müddətdə artıq bir neçə layihənin icrasına start verildiyini qeyd edib. Cəbrayılın təhlükəsizliyində önəmli rol oynayacaq Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışının reallaşdığını, "Araz Vadisi İqtisadi Zonası"nın, birinci yaşayış binasının təməlinin qoyulduğunu, rayonun elektrik təchizatı üçün yarımstansiyanın istismara buraxıldığını, bununla yanaşı, Laçın və Kəlbəcər rayonlarında hazırda su elektrik stansiyalarının bərpası istiqamətində tədbirlərin həyata keçirildiyini xatırladıb. Ölkə rəhbəri daha sonra deyib: "Qarabağda artıq bir neçə stansiya işə başlayıb, o cümlədən, Tərtər rayonunda Suqovuşan Su Elektrik stansiyaları. Mən tapşırıq vermişəm, ermənilər tərəfindən, - onlar qaça-qaç dövründə, Kəlbəcəri, Laçını tərk edən dövrdə, - dağıdılmış stansiyaların 10-nu biz gələn il, qalan 20-dən çoxunu isə ondan sonrakı illərdə bərpa edəcəyik. Yəni, Cəbrayıl rayonunun elektrik təchizatı artıq var. Bu, əsasdır. Çünki bu olmasa, heç nə etmək mümkün olmayacaq".



Dövlətimizin başçısı çıxışında düşməndən təmizlənən ərazilərdə yol infrastrukturuna da xüsusi əhəmiyyət verildiyini bildirərək, hazırda Cəbrayıla 4-6 zolaqlı yolun çəkildiyini diqqətə çatdırıb. Azərbaycan Prezidenti sözlərinə bu infrastrukturun beynəlxalq standartlara uyğun qurulduğunu əlavə edərək, bildirib: "Vaxtilə Ermənistan rəhbərliyi Cəbrayıla yol çəkmək istəyirdi. O da yarımçıq qaldı, onların bütün arzuları kimi. İndi biz Cəbrayıla yol çəkirik. Bizim haqqımız var. Ən gözəl yollardan biri olacaq. Mən xüsusi tapşırıq verdim ki, geniş olsun, həm Cəbrayıla gələn vətəndaşlar rahat gəlsinlər, həm də buradan keçən Zəngəzur dəhlizi də bu yoldan istifadə edəcək".

Ölkə rəhbəri çıxışında vurğuladığı kimi, Qarabağın və Şərqi Zəngəzurun sürətlə bərpası Azərbaycanın güc-qüdrətindən xəbər verir: "Biz müharibəni zəfərlə başa vurduq. İndi sülh dövrünü də zəfərlə başlamışıq, zəfərlə də başa vuracağıq…".

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli fərmanının icrası ilə əlaqədar işğaldan azad olunmuş ərazilərdə infrastrukturun, o cümlədən radio-televiziya yayım stansiyalarının işinin bərpası istiqamətində də işlər uğurla davam etdirilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Kəlbəcər şəhəri və rayonun 15 kəndində 8 TV və 1 radio yayımının təmin olunması bunun bariz ifadəsidir.

Artıq Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən Şahyeri stansiyasının fəaliyyətinin bərpası istiqamətində də işlərə başlanılıb. Cari ilin sonunadək stansiyanın istismara verilməsi ilə Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisində radio-televiziya yayımının gerçəkləşəcəyi nəzərdə tutulub. Bütün bunlarla bərabər, işğal dövründə ermənilər tərəfindən tamamilə dağıdılaraq talan edilən Qubadlı radioyayımı stansiyasının infrastrukturunun yenidən qurulmasına və Zəngilan rayonu ərazisində yerləşən Mincivan stansiyasında müvafiq rekonstruksiya tədbirlərinin həyata keçirilməsinə başlanılıb.

Onu da deyək ki, Şuşa Radio-Televiziya Yayım Stansiyasında müvafiq avadanlıqlar quraşdırılaraq, ötən il dekabrın 31-dən etibarən radio-televiziya yayımı Şuşa, Xankəndi şəhərləri və Xocalı, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrində reallaşdırılıb.

Bərpa-quruculuq layihələri sırasında Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı içməli su təchizatının təmin olunması da diqqətdə saxlanılır. Prezident İlham Əliyevin bu istiqamətdə tapşırıqlarına əsasən hazırda Şuşada müəyyən tədbirlər həyata keçirilir, su təchizatı infrastrukturu yenidən qurulur.

Yeri gəlmişkən, Şuşa şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə layihənin birinci mərhələsi çərçivəsində magistral su kəməri və anbarların tikintisi, həmçinin şəhərdaxili şəbəkənin bir hissəsinin yenidən qurulması nəzərdə tutulur. Hazırda 1980-ci illərdə çəkilmiş Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,3 kilometrlik hissəsinin polad borularla dəyişdirilməsi işləri davam etdirilir.

Avqust ayında icrasına başlanılan layihəyə uyğun olaraq qısa müddətdə magistral kəmər üzrə planlaşdırılan işlərin 50 faizi yerinə yetirilib. İlk növbədə kəmərin Zəfər yolu və elektrik yarımstansiyasının ərazisindən keçən hissəsi inşa olunub.

Şuşa şəhərinin dayanıqlı su təminatı üçün layihənin birinci mərhələsində şəhər ərazisində hər birinin tutumu 500 kubmetr olan 2 su anbarı tikiləcək, şəhərdaxili şəbəkənin 6 kilometrlik hissəsi yenidən qurulacaq. Bu mərhələ üzrə işlər cari ilin sonuna qədər başa çatdırılacaq.

Qarabağda hazırda diqqət yetirilən sahələrdən biri də bölgədə aqrar sektorun inkişafıdır. Bu məsələyə Füzuli rayonunun timsalında nəzər salaq. Belə ki, 44 günlük Vətən müharibəsindən sonra bu rayonun azad edilmiş 600 hektar kənd təsrrüfatı təyinatlı torpaq sahəsində taxıl becərilib və bol məhsul tədarük edilib.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə İşçi qrupundan verilən məlumata görə, cari ildə rayonun 288,8 hektar ərazisində şəkər çuğunduru əkilib və həmin torpaqların 78,8 hektarı işğaldan azad edilmiş əraziləri əhatə edir.

Füzuli rayonunun işğaldan azad olunan Seyidmahmudlu kəndi ərazisindəki minalardan təmizlənmiş həmin torpaqlarda şəkər çuğunduru ilk dəfədir ki, becərilib və yüksək məhsuldarlığa nail olunub. Belə ki, şəkərlilik faizi 15-16 faiz göstərici ilə hər hektardan 55-60 ton məhsul yığılıb və bugünə kimi, 1800 tona yaxın məhsul tədarük edilib.

Hazırda sahələrdə şəkər çuğunduru tədarükü davam edir, məhsulun itkisiz və optimal müddətdə tam yığılması üçün müasir tipli kombaynlardan istifadə olunur.

***"Xalq qəzeti"***